# Rəsm sərgisi keçirildi

Vəndam qəsəbə Sənətkarlıq evində fəaliyyət göstərən rəsm dərnəyi üzvlərinin əl işlərindən ibarət sərgi təşkil olunmuşdur. Sərgidə iştirak etmək üçün rayon Dövlət Rəsm Qalareyasının direktoru Malik Ağayev, turizm şöbəsinin baş məsləhətçisi Anar Rüstəmli, rayon şəkil qalareyasının müdiri Cavidan Məmmədov və qəsəbənin yaşlı nəslinin nümayəndələri, həmçinin yeniyetmələri iştirak edirdilər.

Mərasimi sənətikarlıq evinin direktoru Azər Azayev açaraq qonaqları salamladı və sərgi barədə iştirakcılara ümumi məlumat verdi.

Sonra söz Qəbələ Dövlət Rəsm Qalareyasının direktoru Malik Ağayevə verildi. O, sərginin gənc nəsil üçün həyati əhəmiyyətindən, bu sənətin tarixi, inkişaf yollarından danışdı.

Sonra qəsəbə sakinləri sərgi ilə tanış oldular. Nümunəvi gənc rəssamlara fəxri fərmanlar verildi. Ağsaqqallardan Ənvər Rəhimov, Bahadur Nəsmiyev Ağasəddin Nəsirov, Seyidağa Həmidov, Oqtay Mikayılov və başqaları çıxış edərək gənclərə bu sənət yollarında uğurlar arzuladılar. Sonda şirin çay stolu arxasında ölkəmizdə rəssamlıq sənəti barədə söhbət davam etdi.

Rəsim dərnəyinin rəhbəri Anar Səbzəliyev çıxış edərək sərgi iştirakçılarının gənc rəssamların əməyinə verdikləri qiymətə görə onlara minnətdarlıq bildirdi.

Sonda sərgi iştirakcıları və dərnək üzvləri birgə xatirə şəkili çəkdirdilər.

**Samir AZAYEV,**
**Vəndam qəsəbəsi.**

# Yeni şeirlər

***Avqustun əvvəllərində bir həftə davam edən VIII Qəbələ Beynəlxalq Musiqi Festivalından xeyli vaxt keçməsinə baxmayaraq bu yüksək səviyyəli musiqi bayramı hələ də istər ölkə mətbuatının, istərsə də xarici mətbuatın səhifələrində işıqlanmaqda davam edir. Cəmi 7 gün ərzində 10 mindən çox tamaşaçı iştirak edən tədbir haqqında redaksiyamıza da məktublar gəlməkdədir.***

## Qəbələ!

Vətənimin gözəl yurdu Qəbələ,
Yolun qəşəng, hər tərəfin mənzərə,
Təkrarsızdır təbiətin, Qəbələ,
Füsunkarsan, çox gözəlsən, Qəbələ!
Qışda, yayda ağ örpəkli dağların,
Ən ucadır «Bazar düzü» zirvəsi,
Bulaq səsi, meşələrin kölgəsi,
Füsunkarsan, çox gözəlsən, Qəbələ!
Qış günəşli, yaysa dolu-yağışlı,
Bu gözəllik hardan səndə Qəbələ,
Hər fəsildə min bir dona girərsən,
Füsunkarsan, cox gözəlsən, Qəbələ!
Becərdiyin «Qızıl Əhməd» alması,
Çox dadlıdır, həm də «Sinab» alması,
Şabalıdın, fındıq-qoz çırpılması,
Bu adətdir səndə belə Qəbələ,
Füsunkarsan, cox gözəlsən, Qəbələ!
Dağlarından axan çay da şıltaqdır,
Daşlar qopur onun sərxoş selindən,
Axşam-axşam yayın sərin yelindən,
Məst olunar şəhər əhlin Qəbələ,
Füsunkarsan, çox gözəlsən, Qəbələ!
Sevinərəm bura qonaq gələndə,
Fərəhlənər seyr edəndə mən səni,
Qüssələnər hər dəfə tərk edəndə,
Saz alaram, alqışlaram mən səni,
Füsunkarsan, çox gözəlsən, Qəbələ!

**Arif Həsənoğlu HƏSƏNOV,**
**AMEA-nın akademiki, Y. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun laboratoriya müdiri, kimya elmləri doktoru, professor.**

## Musiqiyə baxış gedir

*VIII Qəbələ Beynəlxalq Musiqi Festivalına*

Qəbələnin sinəsində
Beynəlmiləl yarış gedir.
Bizim milli musiqiyə
Yenə də bir baxış gedir.
Haqdan gələn muğam səsi,
Yeri, göyü hey titrədir.
Kaman dinir, tarım dinir
Bizim milli mysiqiyə
Yenə də bir baxış gedir.
Hər diyardan qonaq gəlib
Ağuşuna Qəbələnin.
Musiqi də vəsf eləyir
Gözəlliyin bu aləmin.
Sərt qayalar zirvəsində,
Yatmış gözəl, qalx ayağy.
İlkinin, Güllünün səsində
Ellər sənə salam deyir.
Yeddi gözəl halay vurub
Vağzalıya rəqs eləyir.
Qayalardan əks-səda
Zop-zopuya cavab verir.
Qəbələdən qalxan kanat
Şah dağında yallı gedir.
Ana yurdum Qəbələdə
Yenə də bir yarış gedir.
Yatmış gözəl, dinlə bir az
Qəbələdə festivaldır.
Beynəlmiləl ciddi yarış
Bizim milli musiqimiz
Şahə qalxır qarış-qarış.
Ürəklərdən qopan bu səs
Azadlığın öz səsidir.
Qəbələni candan sevən
İgidlərin nərəsidir.
Müstəqillik nümunəsi
Qəbələnin haqq səsidir.
Azadlığın himni—bu səs
Qanad açıb uçur göyə.
Məşəl kimi alovlanır
Bayraq kimi dalğalanır.
Burda sanki yarış gedir,
Musiqiyə bir baxış gedir.

**Sədiyar SƏFƏRƏLİYEV,**
**Qəbələ şəhəri.**

# Təbrik edirik!



**Əzizimiz Hacıyeva Nuray Turab qızı! Səni I sinfə qəbul edilməyin münasibətilə təbrik edirik!**

**Təhsil aldığın müddətdə yiyələndiyin bilik və bacarıqları, əxlaqi keyfiyyətləri elinə-obana, müstəqil respublikamızın xoş məramlı gələcəyinə sərf etmyini arzulapyırıq.**

**Babaların: Fərman Hacıyev, Əziz Qəribov.**

## Tariximizi yaşadan nümunələr

Tariximizi yaşadan, qoruyub saxlayan Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi daim ziyarətçilərini qəbul etməkdədir. Zəngin olan ekspozisiya bütün ziyarətçilər tərəfindən vaxtaşırı olaraq izlənilir. Muzeyi ziyarət edən hər bir kəs zəngin ekspozisiya qarşısında valeh olur, qədim tarixə səyahət edirlər. Bu baxımdan bir çox numizmatik, etnoqrafik və sair materiallardan ibarət sərgilər daha çoxluq təşkil edir.

Zəngin ekspozisiyaya malik muzeyimiz əhalidən də qədim əşyaların qəbulunu davam etdirir. Çünki muzeyə verilən hər bir əşya muzey üçün gözəl bir sənət əsəri kimi daimi sərgilərin gözəl nümunəsidir. Tariximizi yaşadan muzey ekspozisiyasını belə hədiyyələrin də hesabına genişləndirməkdədir.

**İlhamə SEYİDOVA,**
**rayon tarix-diyarşünaslıq muzeyinin kiçik elmi işçisi.**

# Xeyriyyəçi insanların nəzərinə!

Həmyerlimiz, ailəli, 2 övlad atası Bum qəsəbə sakini Məmmədxanov Fərhad Şəhrat oğlunun ciddi ürək əməliyyatına ehtiyacı var. Əməliyyat pulludur. Lakin əməliyyat çox bahalı olduğuna görə onun bu əməliyyatın həyata keçirilməsinə görə maddi imkanı yoxdur.

Ailəsinə rəhbərliyi saxlamaq, övladlarını böyütmək üçün xeyirxah və imkanlı adamların köməyinə, ona əl uzatmasına ciddi ehtiyacı var. Xahiş edir ki, bu əməliyyata köməklik göstərilsin.

Fərhad belə insanlara qabaqcadan minnətdarlıq və təşəkkür edir.

«Kapital Bankın» Qəbələ filitalında bu məqsədlə şəxsi hesabını da açmışdır: kodu 200491. VÖEN №-9900003611 AİİBAZ 2 X. müxbir hesabı AZ 37 NABZ01350100000000001944 Məmmədxanov Fərhadın şəxsi hesabı: AZ 71 AİİB 41010019440066044149.

«Kapital Bank»ın ünvanı: Qəbələ şəhəri, Heydər əliyev prospekti 50.

Tel. (02420) 5-02-28.

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 may 1998-ci il tarixdə 10 №-li qərarla Yengicə kənd sakini **Əzizov Xaləddin Əfsər oğlunun və ailə üzvlərinin** aldına verilmiş JN: 0064 nömrəli (kodu 40616038) **Torpağın mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 7 noyabr 1997-ci il tarixdə 19 saylı qərarla Böyük Əmili kənd sakini **Kərimov Nurəddin Süleyman oğlunun və ailə üzvlərinin** adına verilmiş JN-270 F nömrəli (kodu 40604028) **Torpağın mülkiyyətə verilməsinə dair Şahadətnamə** itdiyi üçün etibarsız sayılır.

*Məsul katib*
*N. R. Atakişiyev.*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 1800.
Oxucu məktubları geri qaytarılmır.